# Səxavət dünyasının Hacısı

**Məşhur Azərbaycan milyonçu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətindən bəhs edən "Səxavət dünyasının sərvəri" kitabının təqdimatı keçirilib.**




"TEAS Press" Nəşriyyat evində çap olunmuş əsərin Bakıdakı "LIBRAFF" kitab mağazasında keçirilən təqdimat mərasimində tarixçilər, ictimai xadimlər və kitabsevərlər iştirak ediblər. Tədbirdə kitabın müəllifi – tarix elmləri doktoru Fərhad Cabbarov əsər haqqında ətraflı məlumat verib. O bildirib ki, kitabın hazırlanması zamanı 4 ölkənin arxiv materiallarından istifadə edilib: "Tağıyev haqqında bir çox yanlış fikirlərlə yanaşı əfsanələşmiş məsələlər də mövcuddur. Çalışmışıq kitabda bunların hamısına aydınlıq gətirək".

Milli Tarix Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, professorlar – Ədalət Tahirzadə, Solmaz Rüstəmova-Tohidi, Əməkdar mədəniyyət işçisi Rahib Azəri çıxış edərək kitab haqqında fikirlərini bölüşüblər.

***XQ***

Xalq qəzeti.- 2025.- 31 yanvar (№ 21). - S.14.